**Demokratiya**
**Haqqında**
**150 000**
**İşarə,**
*Hikmət Hacızadə*

# 10. TARİXİLİYİN TƏNQİDİ

(Karl Popperə görə)

Tanınmış demokratiya nəzəriyyəçilərindən biri olan Karl Popperin (ixtisasca fizikdir) "Açıq cəmiyyət və onun düşmənləri" adlı məşhur kitabının əsas ideyası - "tarixiliyin" tənqidindən ibarətdir.

Popperin fikrincə, "tarixilik" tarixi inkişafın obyektiv qanunlarının kəşfinin mümkünlüyünü iddia edən sosial-fəlsəfi konsepsiyadır. Bu konsepsiyanın tərəfdarları hətta iddia edirlər ki, bu cür qanunlar artıq kənarlaşdırılıb və onların əsasında tarixi inkişafın yolları haqqında fikir yürütmək olar.

"Gələcək bizdən asılıdır və bizə heç bir tarixi zərurət təzyiq göstərmir", - deyə Popper iddia edir. Beləliklə, "obyektiv tarixi prosesi öyrənməklə" yarandıqları nəzəriyyə əsasında gələcəkdən xəbər verən "rəmmallar" ən azı səhv edirlər. Digər tarixilik əleyhdarı isə israr edir ki, "gələcəyi qabaqcadan görmək olmaz, lakin onu kəşf etmək olar". Belə fəlsəfə insanı həm öz nəzəriyyələrinin real həyata uyğunluğuna daim nəzarət etməyə, həm də fəal həyat mövqeyi tutmağa, konkret hərəkətlərə, xoşbəxt gələcəyə doğru təklikdə konkret addımlar atmağa sövq edir.

Məhz buna görə də Popper 5-7 il üçün nəzərdə tutulan qlobal islahat planlarının əleyhinə çıxış edir. Popper hesab edir ki, kiçik addımlarla hərəkət etmək və lokal eksperimentlərdən təcrübə toplamaq lazımdır. Belə siyasəti o, "sosial mühəndislik" adlandırır. Sosial mühəndislik tərəfdarları hesab edirlər ki, siyasətin elmi əsasını ictimai institutları bizim məqsəd və arzularımıza uyğun olaraq qurmaq və ya dəyişmək üçün zəruri olan informasiyanın toplanması təşkil edir.

Popper yazır: *"... Yalnız bəzi sosial institutlar şüurlu şəkildə layihələndirilmənin nəticələri kimi yaranıb...*

*Biz belə bir fikrə alışmalıyıq ki, hərəkətimiz ilkin niyyətlərimizə uyğun gəlməyən gözlənilməz nəticələr verir..."*

* (H.H.) Gündəlik həyatımızda biz hərəkatımızdakı tarixilik tərəfdarları ilə nadir hallarda rastlaşırıq. Belələri cəmiyyətin nəzərdə tutulan islahat planına şübhə etmirlər və onların fikrincə, "relsə ki çıxdın", nə sola, nə də sağa hərəkət etmədən, yalnız irəliyə getmək lazımdır. Cəmiyyətimiz elə bir mənəvi uçuruma düşüb ki, bizdə hər bir tarixilik tərəfdarına, görüşlərində səhvə yol versə də, əsl qəhrəman kimi ehtiram göstərilməlidir.

Heç kəsdən asılı olmayan obyektiv tarixi prosesin mövcudluğuna inanan şəxslərlə daha tez-tez rastlaş-malı oluruq. Onların fikrincə, bu proses insanların iradəsindən, konkret şəxsin əməllərindən asılı olmayaraq müəyyən istiqamətdə gedir və bizim istəyimizdən asılı olmayaraq son nəticədə ədalət (və ya ədalətsizlik) səltənətinin bərqərar olmasına gətirib çıxaracaq.

"Mən bu hərəkəti etmədim, çünki cəmiyyət hələlik həmin həqiqəti qəbul etməyə hazır deyil; məni düzgün başa düşməzlər; şərait hələ yetişməyib...". Bu zaman məlum deyil ki, şəraiti kim "yetişdirəcək? Axı, heç nə öz-özünə yetişmir, kimsə cəmiyyəti irəli aparmalıdır. Kim irəli düşəcək, zərbələr kimə dəyəcək? Belə şəxslər özlüyündə düşünürlər ki, kimə dəyir-dəysin, təki mənə toxunmasın...

Artıq başa düşmək vaxtıdır ki, Azərbaycan cəmiyyətinin inkişafı, məsələn, 1988-ci ildən başlayaraq, hansısa özbaşına tarixi proses nəticəsində həyata keçmir. Burada cəmiyyətin tərəqqisi yolunda hər bir kiçicik addım da formalaşmış ənənələrin ətalətinə təkbaşına qalib gəlmiş konkret şəxsin xidmətidir...

Yalnız daxili inkişafa əsaslanan islahatların uğuru və sabit nəticələri ola bilər. Belə daxili inkişaf isə insanın təkbaşına atdığı konkret addımla təmin olunur. "Yuxarı"dan aparılan islahatların uğursuzluğu da bundadır.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Həddindən artıq irəli qaçmış siyasi qrupların mübarizəsi nəticəsində parlamentin qəbul etdiyi qanunlar bizdən 10 min kilometrlərlə aralıda yerləşəni BMT-nin qəbul etdiyi bəyannamələr kimi cəmiyyət üçün çox az əhəmiyyət kəsb edir.

Məsələn, siz konstitusiyada yazırsınız ki, mülkiyyət müqəddəsdir, lakin nə əhali, nə məmurlar, nə polis, nə parlament üzvləri bunu daxilən qəbul etmək iqtidarında deyillər və nəticədə həmin norma yerinə yetirilmir.

*"Yaxşı qanunları həyata keçirmək, onları ali hakimiyyət halına salmaq həmin qanunları yaratmaqdan daha çətindir" (Popper).*

Siyasi hərəkat öz daxilindəki münasibətləri qanunvericilik yolu ilə möhkəmləndirib, öz maraqlarını təmin etmək uğrunda mübarizə aparır. Hərəkatın daxilində, insanlar arasındakı münasibətlərdə konformizm, zorakılıq, korrupsiya və avtoritarizm norma halını alıbsa, hakimiyyətə gəldikdə də biz həmin normaları qanunverici və ya inzibati yolla həyata keçirəcəyik. Belə olduğu halda mübarizəmizin mənası nədir?.. Özünü demokrat adlandıran hər bir şəxsin şüuruna məhz bunu çatdırmalıyıq.

Təklikdə addım atmağa cəsarət etmək, populyar olmayan qərarlar qəbul etmək asan deyil. Belə vətəndaşlıq qeyrəti göstərmək düşmənlə mübarizədə qəhrəmanlıq etməkdən daha çətindir. Lakin vətəndaşlıq qeyrəti olmadan biz cəmiyyəti irəli apara bilməyəcəyik.

Özümüzü buna hazırlamaqdan ötrü, ilk növbədə, öz beynimizdə (və ya ürəyimizdə deyək) demokratik rejim qurmalıyıq; daha sonra ailədə, valideynlərlə, uşaqlarla, qadınla, dostlarla münasibətlərdə, kollektivdə, kiçik müdirlə, böyük müdirlə (onu bizə hörmət etməyə məcbur etmək), məmurlarla, nazirlə, hakimiyyətlə və bundan sonra, nəhayət, İmperiya ilə əlaqələrdə demokratiyanın bərqərar olması uğrunda mübarizə aparmalıyıq.

**Keçmiş SSRİ ölkələri üçün Karl Popperin məsləhətləri**

Karl POPPER,
*"Açıq cəmiyyət və onun düşmənləri"*
*kitabından, Moskva, 1992)*

Qərb cəmiyyətlərinin hüquqi sistemi sənayenin, azad bazarın və təklif olunan bütün alternativlərin tərəqqisi ilə bərabər inkişaf edib. O, başlanğıcını hələ Qədim Roma dövründən götürmüş hüquqi münasibətlər təcrübəsinin artması ilə inkişaf edib. Bədbəxtlikdən Rusiyada bu ənənəni və azad bazarı kommunizm qırmışdır. Düşünmürəm ki, təkcə rus təcrübəsinə əsaslanaraq onu tezliklə bərpa etmək mümkün olsun. Mənə aydındır ki, indiki vəziyyətdə ən qısa (əlbəttə, heç də mükəmməl olmayan) yol Rusiyanın Qərbdə yayılmış hüquqi sistemlərdən birini götürməsidir. Bu yolun prinsipcə mümkünlüyünü Yaponiya nümayiş etdirib. Yaponlar ölkənin Avropa nümunəsi əsasında sənayeləşdirilməsi planını həyata keçirmək üçün 1873-cü ildəki alman hüquqi sisteminin zəruriliyini dərk edərək mənimsədilər.

Güman edirəm ki, Rusiya üçün iki ən aşkar imkan alman və fransız qanunvericiliyidir.

*(H.H. Vaxtilə Atatürkün rəhbərlik etdiyi Türkiyə də bu yolla gedərək İsveçrə Mülki Məcəlləsini, Almaniya Ticarət Məcəlləsini və İtaliya Cinayət Məcəlləsini qəbul edib. Yeri gəlmişkən, Yeltsin Rusiyası da bu imkandan artıqlaması ilə istifadə edib - demək olar ki, RF-nın bütün qanunları Almaniya və Fransa qanunvericiliyindən götürülüb. Güman edirəm ki, Azərbaycan da bu yolu tutmalıdır).*

Bu, tarixi səbəblərlə şərtlənib: Böyük Britaniyada bütövlükdə əxz olunmalı qanunlar məcəlləsi heç vaxt olmayıb, ABŞ-ın hər ştatının isə özünəməxsus hüquqi sistemi var.

Buna görə də, britaniyalılar kimi amerikalılar da tam şəkildə mənimsənilməsi mümkün olan vahid qanunvericilik sistemi yaratmayıblar.

Əlbəttə, hər hansı sistemi tam şəkildə qəbul etdikdə o işləməyə də bilər. Rusiya parlamenti lazım gəldikcə onu təshih etməlidir: bütün müasir dövlətlərdə parlament fəaliyyətinin əsas hissəsini belə təshihlər təşkil edir...

Yaxşı qanunvericiliyi həyata keçirmək, ölkədə ali hakimiyyət halına salmaq onu yaratmaqdan daha çətindir... Ədalət məhkəməsini tətbiq etmək üçün qanunun aliliyini ciddi qəbul edən çoxsaylı savadlı məmurlar tələb olunur. Onların hamısı yalnız obyektiv həqiqətə xidmət ruhunda tərbiyə olunmalıdırlar.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

*Onlar əmin-amanlıq vaxtı heç bir "ali" mənafeyi, heç bir dövlət maraqlarını əldə rəhbər tuta bilməzlər. Belə şəxslərin tərbiyəsi mühüm vəzifədir və illərlə vaxt tələb edir.*

*Qanunun hakimiyyətini bərqərar etmədən azad bazarın inkişafı və Qərblə iqtisadi bərabərliyin əldə olunması mümkün deyil.*

*Mənə belə gəlir ki, bu fikir çox önəmli və son dərəcə aktualdır.*

*(Valeri Bans öz elmi məqaləsində məhz bu müddəanı sübut edir, bax: aşağı - H.H.).*

**Popperin proqramı**

Karl POPPER
*"Açıq cəmiyyət və onun düşmənləri" kitabından, Moskva, 1992)*

... "Sağlar-sollar" qütbləşməsini biz nə ilə əvəz edəcəyik?.. Məmnuniyyətlə müzakirəyə təqdim etdiyimiz ilkin proqram aşağıdakılardan ibarətdir:

1. AZADLIĞIN MÖHKƏMLƏNDİRİLMƏSİ VƏ ONDAN İRƏLİ GƏLƏN MƏSULİYYƏTİN DƏRK OLUNMASI. Biz maksimum şəxsi azadlığa nail olmağa ümid edirik. Lakin buna hər cür zorakılığı rədd edən sivilizasiyalı cəmiyyətdə nail olmaq mümkündür. Sivilizasiyalı cəmiyyətin fərqləndirici cəhəti ondan ibarətdir ki, o daim qarşısında duran problemlərin qeyri-zorakılıq metodları ilə həlli yollarını axtarır.

2. BÜTÜN DÜNYADA SÜLH. Nüvə silahının kəşfi ilə əlaqədar bütün sivilizasiyalı cəmiyyətlər sülhün qorunması sahəsində əməkdaşlıq etməli və nüvə silahının yayılmasının qarşısını almalıdırlar.

3. YOXSULLUQLA MÜBARİZƏ. Texnikanın inkişafı nəticəsində bəşəriyyət yoxsulluğu aradan qaldırmaq və işsizliyi minimuma endirmək üçün kifayət qədər (hər halda potensial cəhətdən) varlıdır. İqtisadçılar başa düşüblər ki, işsizliyi aradan qaldırmaq heç də asan deyil və bu, doğrudan da, belədir. Buna görə də onlar gözlənilmədən işsizliyi tamamilə ləğv etmək fikrindən əl çəkiblər (təxminən 1965-ci ildə). Əslində isə işsizlik probleminin həllinin mümkünlüyünü sübut edən dəlillər var, amma bu zaman azad bazarın işinə müdaxilə etmək lazım gələcək...

4. DEMOQRAFİK PARTLAYIŞLA MÜBARİZƏ. Hazırda, hamiləliyin qarşısını alan dərmanların, eləcə də doğuma başqa nəzarət metodlarının kəşfindən sonra, biokimyəvi texnologiya elə bir səviyyəyə çatıb ki, bütün dünyadakı insanları demoqrafik nəzarət metodlarına öyrətmək mümkündür.

Bu çox mühüm məqam humanist proqramı olan hər bir partiyanın siyasi gündəliyində durmalıdır. Tamamilə aydındır ki, bizim bütün ekoloji problemlər əhalinin sayının sürətlə artması ilə əlaqədardır...

...Humanist mülahizələrə görə, biz yalnız arzu olunan uşaqların doğulmasına çalışmalıyıq, çünki fiziki və ya mənəvi zorakılıq qurbanı ola biləcək arzuolunmaz uşağa həyat vermək amansızlıqdır.

5. QEYRİ-ZORAKILIQ TƏLİMİ. Mən çoxdan bu fikirdəyəm ki, son vaxtlar dünyada zorakılığın sayı artıb. Bu, əlbəttə, fərziyyədir və onu hələ yoxlamaq lazımdır. Məncə, tədqiq etmək lazımdır ki, biz öz uşaqlarımızı qəddarlığın təzahürlərinə qarşı həddən artıq dözümlü tərbiyə etmirikmi? Bu belədirsə, onda qəti tədbirlər görmək lazımdır, çünki qəddarlığa qarşı dözümlülük şübhəsiz ki, sivilizasiya üçün təhlükə yaradır... Mən "əsassız qəddarlıq" kəlməsini işlətmirəm, çünki qəddarlığa heç vaxt haqq qazandırmaq və yol vermək olmaz. Mən təkcə fiziki deyil, həm də ağılsızlıq, tənbəllik və eqoizm ucbatından törətdiyimiz mənəvi qəddarlıqları nəzərdə tuturam.

Belə pedaqoji problemlər haqqında danışmaq indi dəbdə deyil. Bu, qismən onunla əlaqədardır ki, hazırda azadlıq elə anlamda dəbə minib ki, bu istənilən hərəkəti, hətta indi dəbdə olmayan əxlaqi prinsiplər baxımından iyrənc şeyləri belə etməyə imkan verir. Qismən də onunla izah edilir ki, riyakarlıq əxlaqa daxil olub

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Mən Kantın vaxtilə bəyan etdiyi fikri yada salmaq istəyirəm: “Müdrik olmağa cəsarət et”. Mən isə sizə daha xırda məsləhət verirəm: “Dəbdə olanlara nifrətlə baxmağa və hər gün bir qədər məsuliyyətli olmağa cəsarət et. Bu sənin azadlıq üçün etdiyin ən yaxşı şey olardı”.

## 11. DEMOKRATİK DALĞANIN UĞURSUZLUĞUNUN SƏBƏBLƏRİ HAQQINDA

### Növbəti seçkilərdə kimə səs verəcəklər?

*Dəyişikliklər pisdən daha pisə doğru olsa belə, müəyyən rahatlıq gətirir.*

Vaşinqton İrvinq

“Yenidənqurma” dövründən, keçmiş SSRİ və sovet düşərgəsi ölkələrində nisbətən azad seçkilərin keçirildiyi vaxtdan başlayaraq, seçicilərin ovqatında əsaslı dəyişikliklər müşahidə etmək olar. Postkommunist dövrün ilk seçkilərində səslərin tam əksəriyyəti köklü iqtisadi islahatlar və öz ölkələrinin sözsüz suverenliyi uğrunda çıxış edən antikommunist və millətçi liderlərə verilmişdi.

Lakin artıq növbəti seçkilər demək olar, iqtisadiyyatda şok terapiyasının əleyhinə çıxış edən və Rusiyanın “xüsusi hüquqlarının” xeyrinə suverenlikdən imtina etməyə hazır olan kommunistpərəst qüvvələrin qələbəsi ilə nəticələndi (o cümlədən, Azərbaycanda).

Nə baş verdi? İndiki iqtidarın dövründə Azərbaycanda həyat səviyyəsinin üç dəfə düşməsinə baxmayaraq, niyə ictimaiyyət demokratik hökumətin effektliyini qəbul etmək istəmir? Ümumiyyətlə, seçicilərin ovqatı hökumət siyasətinin uğurlarından asılıdırmı? İctimai ovqatda belə dəyişikliklər Qərbdə də baş verirmi və niyə? Bu barədə tanınmış Amerika siyasi xadimi və politoloqu  Artur Şlezingerin (oğul) “Amerika siyasətinin dövrləri” məqaləsində oxumaq olar (“Mejdunarodnaya jizn”, 6,1990, Moskva).

**“Amerika siyasətinin dövrləri”**
Artur ŞLEZİNGER

Müdrik şəxslər bəşər tarixində dəyişiklikləri, qabarma və çəkilmələrin müəyyən sxematikliyi haqqında danışırlar. Amerika filosofu Ralf Emerson 1841-ci ildə yazırdı: “Dövləti bölüşdürən iki partiya, mühafizəkarlar partiyası və yeniləşmə partiyası (bizdə “Azadlıq partiyası” və “Qayda-qanun partiyası” ifadələri daha geniş yayılıb - H.H.), mahiyyətcə mübarizə aparırlar... Gah bu, gah da digəri qalib gəlir, lakin mübarizə ilk dəfə olduğu kimi yenidən qızışır, dəyişən isə yalnız şüarlar və populyar şəxslərin adları olur”.

50 il sonra isə Henri Adams Amerika respublikasının ilk illərinə münasibətdə dövrilik haqqında tezisin daha dəqiq variantını verdi. O, yazırdı: “Rəqqas təxminən 12 ilə bərabər olan dövrilikdə yellənir. Effektiv konstitusiyanın yaranması üçün Müstəqillik Bəyannaməsinin elan olunmasından sonra 12 il (! - H.H) tələb olunurdu; daha 12 il sonra o zaman yaradılan hökumətə qarşı müqavimət meydana çıxdı; üçüncü 12 illik dövr daha böyük enerjinin coşğun yüksəlişi ilə qurtardı; indi hətta uşaq bu qəbildən olan növbəti  bir neçə dönüşün nə ilə nəticələnəcəyini hesablaya bilər”.  H.Adamsın Amerika müstəqilliyinin ilk 36 ilində müşahidə etdiyi əsas ritmiklik həmin dövrdən ötən uzun illər ərzində də özünü göstərməkdədir...

Həmin dövrilik fenomeninin digər izahına mən atamda (Artur Şlezinger (ata)) rast gəlmişəm. O yazırdı ki, rəqqas konservatizmlə liberalizm arasında kiçik insan qruplarının haqlarından doğan narahatlıq dövrləri ilə çoxluğa qarşı ədalətsizlikdən irəli gələn təşviş dövrləri arasında yellənir.

Henri Adamsın üç dövrünün ardınca, atam Amerika tarixinin aşağıdakı dövrlərini müəyyənləşdirmişdir: 1812-ci il müharibəsindən sonra Ceffersonun geri çəkilməsi; Ceksonun 1829-1841-ci illər demokratikləşdirmə dövrü; 1841-1861-ci illərdə quldarların yaratdığı milli hökumətin güclənən zorakılığı; quldarlığın ləğvi, 1861-1869-cu illər; mühafizəkar hakimiyyət, 1869-1901-ci illər: “Yeni kurs” erası, 1931-1947-ci illər.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Bu dövrlərdən altısının gedişində məqsəd demokratiyanı genişləndirmək, beşində isə - məhdudlaşdırmaq idi. Hər belə dövr orta hesabla 16 il yarım davam edib.

Atamın qeyd etdiyi kimi, dövrün sonunda millət mövcud olmuş Status Quo-ya qayıtmır. Bir qayda olaraq, mühafizəkarlar hakimiyyətə qayıtdıqdan sonra liberal islahatlar qüvvədə qalır. Dəyişikliklər spiral üzrə, hər dəfə daha yüksək səviyyədə baş verir və bu da onların nəticələrinin toplanmasına gətirib çıxarır...

İqtisadçı Albert O.Hirşman öz məqaləsində (1982) dövriliyin daha bir modelini təklif edir. İstehlak nəzəriyyəsini siyasətə şamil edən Hirşman sübut etməyə çalışır ki, Qərb cəmiyyəti sənaye inqilabından başlayaraq, şəxsi işlərlə maraqlandığı dövrdən ("şəxsi maraqlar" dövrü) ictimai məsələlərlə maraqlandığı dövrə ("ictimai fəaliyyət dövrü") keçir.

BU, HƏQİQƏTƏN DÖVRDÜRSƏ, onda onun təbiəti xarici (məsələn, iqtisadi) şəraitlə bağlı olmayan daxili amillərlə izah olunmalıdır. Hər bir yeni mərhələ özündən əvvəlki şəraitdən irəli gəlməli, sonra isə özü hər şeyin yenidən təkrar olunması üçün yol açmalıdır.

Başqa sözlə, həqiqi dövr öz-özünü generasiya etməlidir (törətməlidir). Xarici hadisələr (fəlakətləri istisna etməklə) onu müəyyənləşdirə bilməz. Müharibə, depressiya, inflyasiya ovqatı kəskinləşdirə bilər, lakin dövr müstəqil inkişaf etməkdə davam edir.

(Siyasi dövrün müstəqilliyi güclü təsir qüvvəsi olan işgüzar dövr kimi bir təzahürlə korrelyasiyanın olmaması faktı ilə təsdiq olunur. Bəli, "Yeni kurs"dan öncə depressiya olub, lakin Mütərəqqi era ümumi çiçəklənmə vaxtı başlanıb, 1869-1902-ci illər dövründə isə iki güclü iqtisadi böhran baş versə də, onlar konservatizmin güclənməsi prosesinin qarşısını ala bilməyib).

Cimmi Karterin 1976-cı ildə prezident seçilməsi anomaliya kimi (bizim qəbul etdiyimiz dövriliyə görə) görünsə də, Karter demokratik partiyanın ənənələrindən imtina edərək özündən yüz il əvvəl hakimiyyətdə olmuş Qrover Klivlenddən sonra ən mühafizəkar demokrat prezident oldu. O, iqtisadiyyatda tənzimləmənin əleyhinə çıxır, büdcəni tarazlaşdırmağa söz verir və ictimai işlərdə dinin rolunun artırılma-sına çalışırdı.

BELƏ DÖVRİ MÜSTƏQİLLİYİN KÖKLƏRİ, şübhəsiz ki, insan təbiətinin dərinliklərinə gedib çıxır. Dövri əsas müasir zəkanın psixologiyasında da var. Sosial dəyişikliklərin tempi sürətləndikcə, insanlar daim narazı olan varlıqlara çevrilirlər. İstəklər sərhəd bilmədiyi üçün, onları heç vaxt tamamilə təmin etmək olmur...

Daimi narazılıq hissi siyasi dəyişikliklərin əsas mənbəyidir. Nə ictimai, nə də şəxsi həyatda insanlar heç vaxt uzun müddət ərzində özlərini təmin olunmuş hesab edə bilmirlər. Biz əvvəl birini, sonra digərini etməyə cəhd göstəririk və məyusluq hissi kursu dəyişməyi tələb edir.

Bundan əlavə, bu və ya digər kurs (problemin həllində nə qədər effektiv olsa da), bir qayda olaraq, yeni problemlər ortaya çıxdıqda lazımi nəticələr vermir. Bəzi problemlər isə, ümumiyyətlə, öz təbiətinə görə həllolunmazdır. Bir müddət sonra nə isə başqa şey əldə etmək istəyi yaranır və həmişə "dəyişikliklər vaxtı" gəlib çatır.

Hər bir fazaya ("şəxsi maraq" və ya "ictimai hərəkət") özünün yaratdığı xüsusi ziddiyyətlər xasdır. "İctimai hərəkət", həyat şəraitimizi yaxşılaşdırmağa çalışaraq, nisbətən qısa dövr ərzində çoxsaylı dəyişikliklərin yaranmasına gətirib çıxarır (bu, bilavasitə bizim demokratik hökumətin haqqında deyilib - H.H.). Yeniliklərin çoxluğu son nəticədə siyasi orqanizmin boğulmasına səbəb olur, çünki bütün yenilikləri həzm etmək üçün ona müəyyən vaxt lazımdır.

Bundan əlavə, uzunmüddətli "ictimai hərəkət" emosional yorğunluğa gətirib çıxarır. Millətin yüksək siyasi gərginlik atmosferində yaşamaq bacarığının müəyyən hüdudları var. Təbiət nəfəs dərmək üçün fasilələr tələb edir. Adamlar artıq özlərində qəhrəmanlıq ovqatı yarada bilmirlər. Onlar şəxsi həyatın sakit tənhalığına qapılmaq istəyirlər. İctimai mübarizənin "qeyri-qənaətbəxş" nəticələrindən məyus olan adamlar yenidən sərbəst olmağa, qüvvələrin bərpası və istirahət üçün tənəffüs əldə etməyə çalışırlar. "Amerikalılar ibarəli və mənasız sözlərdən ibarət olan 20 illik dəyişməz pəhrizdən sonra yorulurlar, karıxdırıcı şərəfsiz idealizm onları çiyrəndirir, - H.Menken yazırdı, - İntellektual şarlatanlıqdan ölüncə yorulmuş vətəndaş səmimi kənəgüllüğa çəkilir".

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Beləliklə, “ictimai fəaliyyət”, idealizm, ehtiras və islahatlar geri çəkilir...

“XÜSUSİ MARAQ” DÖVRÜ DƏ HƏMÇİNİN ZİDDİYYƏTLƏR TÖRƏDİR. Belə dövrlər narazılıq, tənqidilik, etiraz kimi sualtı cərəyanlarla xarakterizə olunur. Əhalinin bəzi qrupları tamahkar yarışda uduzur. İctimai problemlərə məhəl qoyulmadığından onlar kəskinləşməyə başlayır. Onların idarəolunmaz dərəcəyə çatması təhlükəsi yaranır. Adamlar eqoist dəlil və nöqteyi-nəzərlərdən qıcıqlanmağa başlayır, son məqsəd kimi materializmdən yorulurlar.

Ümumi məsuliyyət hissindən sərbəstlik dövrü milli enerjini bərpa edir. Adamlar həyatın mənasını öz varlığından, “şəxsi marağından” kənarda axtarmağa başlayırlar. Onlar artıq soruşmurlar ki, dövlət onlar üçün nə edə bilər, onlar maraqlanırlar ki, özləri doğma ölkələri üçün nə edə bilərlər (C.F.Kennedinin ifadəsi - H.H.). Onlar artıq döyüş siqnalı ilə ayağa qalxmağa hazırdırlar. Bu vaxt köhnə üsulla həll oluna bilməyən hər hansı məsələ, hər hansı təhlükəli problem (1988-ci ilin noyabrında bizdə “Topxana məsələsi - H.H.) detonator rolunu oynayır və yeni siyasi dövrə - “ictimai fəaliyyət” epoxasına keçid başlanır. Eramızdan min il əvvəl Çində deyildiyi kimi, “Göylərdən nazil olmuş iqtidar da sonsuz davam etmir...”

DÖVRİ PROSESİN DAHA BİR ASPEKTİ VAR. Bu, siyasi dövrün hərəkətverici qüvvəsi olan nəslin təcrübəsidir.

Tarixi təhlil vahidi kimi (siniflər, etnoslar və s. - H.H.) çıxış edən nəsil konsepsiyası lap bu yaxınlarda yaranıb.

Ənənəvi cəmiyyətdə dəyişikliklər o qədər də hiss olunmurdu və hər bir nəslin adamları ataları və babaları kimi yaşayırdılar. Lakin tarixi gedişin sürətlənməsi və yeni nəsillər yeni təzahürlərlə qarşıla-şaraq fərqləndirici xüsusiyyətlər əldə etdilər. Sosial indikator rolu ictimai mövqedən yaş səviyyəsinə keçdi. Aleksis de Tokvill qeyd edirdi ki, “demokratik ölkələrdə hər bir nəsil yeni xalq deməkdir”. Beləliklə, tarixi dəyişiklikləri “bir nəslin ömür müddəti” ilə ölçmək lazımdır ki, həmin müddət ərzində də “insanların yeni cavan nəsli təhsil alır, böyüyür və cəmiyyətin sahibinə çevrilir” (C.Mill).

Bir nəslin siyasi ömrü təxminən 30 il davam edir (Orteqa-i-Qasset, Manheym). Siyasi yaş həddinə qədəm qoymuş hər bir nəsil ilk 12 ili artıq öz hakimiyyətini möhkəmlətmiş nəsillə mübarizədə keçirir. Sonra isə özü 15 illik dövr ərzində hökmranlıq edir və siyasəti köhnəldiyi üçün hakimiyyəti növbəti nəslə verməli olur.

Orteqa və Manheymin 15 illik dövrləri təxminən Henri Adamsın 12 illik və mənim atamın 16 illik dövrlərinə uyğun gəlir.

Hakimiyyətə sahib olan nəsillə siyasi yetkinlik dövrünə qədəm qoyan nəsil arasında əksəlaqə var, halbuki onların arasındakı antaqonist nəsil dəyişikliklər tələb edir. Hakimiyyətə gələn hər yeni nəsil özündən əvvəlkinin əməllərini rədd edib, formalaşdığı 30 il əvvəlki dövrün hakim ideallarını həyata keçirməyə cəhd edir.

*(H.H.) Beləliklə, növbəti seçkilərdə seçicilər kimə səs verəcəklər? “Azadlıq və İslahatlar partiyasına” (demokratlara), yoxsa “Qayda-qanun partiyasına” (partokratlara)? Bu ondan asılıdır ki, bizim seçicilər demokratların cəmiyyətə təqdim etdikləri yeniliklər və qeyri-müəyyənliklərdən yorulduqları kimi gələcək seçkilərdə indiki hökumətin yaratdığı boğucu sabitlikdən də cana doyacaqlarmı?*

*Fikrimcə, insanların şüurunda həmin yeniliklər 1988-ci ildən bəri Qorbaçov “yenidənqurma”sının gətirdiyi yeniliklər və Qarabağ konfliktinin səbəb olduğu xaosla eyniləşdirilir.*

*“İctimai fəaliyyət” və ya “xüsusi maraq” fazaları Azərbaycanda nə qədər davam edir? sualına cavab verməyi isə mən oxuculara təklif edirəm. Lakin A.Şlezingerin ilk baxışdan paradoksal görünən fikrini burada yenidən təqdim edirəm:*

*“... həqiqi dövr öz-özünü generasiya edir. Fəlakətləri çıxmaq şərti ilə, xarici hadisələr onu müəyyənləşdirə bilməz. Müharibə, depressiya, inflyasiya ovqatları kəskinləşdirə bilər, lakin dövr özlüyündə müstəqil inkişaf etməkdə davam edir”.*

Şlezingerin fikrini Azərbaycandakı indiki hadisələr və ictimai ovqat tamamilə təsdiq edir. İqtisadi və hərbi iflasa baxmayaraq, cəmiyyət hələ indiki hökumətin qoyduğu “quruluş”dan yorulmayıb. Başqa sözlə desək,

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

cəmiyyət demokratların hakimiyyət dövrü ilə əlaqələndirilən yeniliklər və qeyri-müəyyənliklər dalğasından hələ dincəlməyib.

*Dövrün müstəqil inkişafı haqqında Şlezingerin fikrindən daha bir gözlənilməz nəticə ortaya çıxır. Cəmiyyətin, qayda-qanun istədiyi dövrdə hakimiyyətə gəlmiş "İslahatlar partiyası" hakimiyyəti əldə saxlamaq üçün islahatları dayandırmalı və qayda-qanunu bərqərar etməli olacaq. Əksinə, "Qayda-qanun partiyası" cəmiyyətin islahatlar tələb etdiyi dövrdə hakimiyyətə gələrsə, həmin islahatları həyata keçirməyə məcbur olacaq...*

**Siyasi sistem daxildən**

*"İctimai siyasi sistemin əsasını üç element təşkil edir. Birincisi, o, legitim, başqa sözlə desək, qanuniləşdirilmiş, ictimai cəhətdən qəbul edilmiş olmalıdır.*

*İkincisi, onun qərarları həyata keçirən bürokratiyası olmalıdır.*

*Üçüncüsü, onun zor tətbiq etmək və yaxud heç olmazsa, zor tətbiq etməklə hədələmək hüququ olmalıdır...*

Maks Veber.

**Demokratik islahatların başlıca səhvi**

QAYDASIZ YARIŞ

*Qanunun hakimiyyəti bərqərar edilmədən azad bazarın inkişafı və Qərblə iqtisadi bərabərliyə nail olmaq ağlasığmazdır. Mənə elə gəlir ki, bu fikir çox mühüm və son dərəcə aktualdır.*

Karl Popper

Hər bir islahatın ayrılmaz cığırdaşı olan xaos, bizim çətinliklə yenidən qurulan cəmiyyətimizdən də yan keçməyib. Artıq papağımızı aparmış dəyişikliklər küləyi qızmış başlarımızdakı tüklərin qalığını da dartıb çıxarır və başımızın da tezliklə qoparılması təhlükəsi yaranır. Bunabənzər hadisələr sovet sosializmindən liberal kapitalizmə keçən bütün ölkələrdə baş verir.

İslahatların həyata keçirildiyi ölkələrdə gedən proseslər fundamental elm nümayəndələrinin diqqət mərkəzindədir. Bununla əlaqədar mən oxucuların diqqətini Valeri Bansın çox tutarlı nəzəri məqaləsinə cəlb etmək istəyirəm (Kornelskiy universitet, SŞA, "Elementı neopredelennosti v perexodnıy period", Polis, 4, Moskva, 1993).

Sovet sosializmindən liberalizm dövrünə keçən cəmiyyətin xüsusiyyətlərini təhlil edən V.Bans ictimai və siyasi münasibətlərdə olan Müəyyənlik və Qeyri-müəyyənliyin kəmiyyəti baxımından cəmiyyətdəki durumu xarakterizə etməyə cəhd göstərir.

Müəllif dörd tip siyasi-iqtisadi sistemi nəzərdən keçirir - dövlət sosializmi, liberal kapitalizm, keçid dövrü (sosializmdən kapitalizmə), diktatura.

Siyasi və iqtisadi rəqabətə imkan yaradan LİBERAL KAPİTALİZMDƏ insan fəaliyyətinin son nəticələri Qeyri-müəyyən, Gözlənilməzdir - bu yarışda insana hər şey ola bilər: seçkilərdə uğur və uğursuzluqlar, var-dövlət və müflisləşmə. Burada insan fəaliyyətinin bütün son nəticələri gözlənilməz və müvəqqəti xarakter daşıyır.

Lakin liberal kapitalizmdə həmin Qeyri-müəyyənliyin hüdudu da var. Rəqabət sonsuz ola bilməz, çünki həddən artıq Qeyri-müəyyənlik işə mane olur.

Məhz bu səbəbdən liberal kapitalizmdə Nəticələrin Qeyri-müəyyənliyi ilə Prosedurаların Müəyyənliyi ahəng təşkil edir.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

PROSEDURALAR konfliktləri tənzimləyən, sabitliyi təmin edən və beləliklə də, rəqabətin gözlənilməz nəticələrindən cəmiyyəti xilas edən institutlardır. Məsələn, buraya aşağıdakılar daxildir: qanunların səmərəli fəaliyyəti; siyasi mübarizəni nizamlayan partiyaların mövcudluğu; rasional hüquqi meyarlara arxalanan bürokratiya; həmkarlar ittifaqları; sosial təminat institutları; xüsusi mülkiyyətin hüquqi müdafiə sistemi və başlıcası isə, nəyə icazə verilib, nəyə icazə verilməməsi barədə ictimai müqavilə.

BELƏLİKLƏ, LİBERAL SİSTEMDƏ rəqabətin müəyyən məhdudiyyətləri var ki, onların varlığı sistemə dayanıqlıq verir. Liberal demokratiyada Nəticələrin Qeyri-müəyyənliyi ilə Prosedurаların Müəyyənliyi ahəng təşkil edir. Bu sistemə risk (rəqabət) və təminat (təhlükəsizlik) ünsürləri daxildir.

DÖVLƏT SOSİALİZMİNDƏ İSƏ (söhbət onun ideal modelindən gedir) hər şey əksinədir: fəaliyyətin son nəticələri həmişə irəlicədən müəyyən edilir. Siyasi sahədə Kommunist partiyası hakimiyyət üzərində inhisara malikdir, onun rəqabəti isə məhv edilmişdir. İqtisadi sahədə isə istehsal, bölgü və istehlakın bütün sahələrini əhatə edən sərt plan fəaliyyətdədir.

Beləliklə, dövlət sosializmi Rəqabəti məhv edib, Qeyri-müəyyənlikdən xilas olmuş və həm siyasət, həm də iqtisadiyyatda nəticələrə təminat verib, onların irəlicədən müəyyənləşdirilməsini mümkün etmişdir.

Bununla belə, dövlət sosializmində Prosedurаlar Müəyyənlikdən məhrum oldu. Qeyri-demokratik cəmiyyətdə vətəndaş nəzarətindən kənarda qalan bürokratlar prosedurаlara istənilən formanı verərək, son nəticədə, onları Qeyri-müəyyən etdilər. Müvafiq olaraq insan fəaliyyətinin nəticələri yenidən gözlənilməz xarakter aldı. Heç kəs bilmirdi ki, bürokratik aparat bu dəfə ondan nə tələb edəcək.

Demokratik proseslər, Prosedurаlar müəyyənləşmədikdə hüquqlar da Qeyri-müəyyən olur, onların varlığı duyulmur. Nəticədə məmur nəinki qərar qəbul etmək, həm də İnsan haqlarını, Dövlətin Məqsədlərini, Prosedurаları və Yurisdiksiyanı müəyyənləşdirmək imkanı qazanır...

Beləliklə, dövlət sosializmi sistemində nəticələrin Müəyyənliyi prosedurların Qeyri-müəyyənliyi ilə ahəng təşkil edir. Dövlət sosializmi sistemində (liberal kapitalizmdə olduğu kimi) Müəyyənliyi və Qeyri-müəyyənliyi, risk və təminat ünsürlərini birləşdirir.

DÖVLƏT SOSİALİZMİNDƏN LİBERAL KAPİTALİZMƏ KEÇİD DÖVRÜ üçün həm Nəticələrin Qeyri-müəyyənliyi, həm də Prosedurаların Qeyri-müəyyənliyi xarakterikdir!..

Postsosialist dövlətlərdə islahatlara başçılıq edən demokratlar kommunistlərin qadağan etdiyi Rəqabətin bərpasını özlərinin birinci və başlıca məqsədi elan etdilər. Çünki yalnız Rəqabət cəmiyyəti inkişaf etdirmək, iqtisadiyyatı yüksəltmək və ölkəni irəli aparmaq iqtidarındadır.

Şübhəsiz ki, belə addım cəmiyyətdə Nəticələrin Qeyri-müəyyənliyini kəskin surətdə artırırdı. Siyasi və iqtisadi rəqabətin tətbiqi ilə əlaqədar meydana çıxan yeni və çox zaman həyəcanlı informasiya axını belə fırtınada üzməyi bacarmayan insanı batırmaq təhlükəsi yaradırdı. Beləliklə, artıq Prosedurаların Qeyri-müəyyənliyinə malik olan cəmiyyətimiz keçid dövründə islahatlar nəticəsində üstəlik Nəticələrin Qeyri-müəyyənliyini də qazandı! Həyatın bütün sahələrində risk durmadan çoxalır, təminatlar isə artmırdı. Biz yuxarıda nəzərdən keçirdiyimiz sistemlərdən ən səbatsızını qazandıq ki, o da tam hüquqla xaos adlandırılır.

Liberal islahatların keçirilməsi gedişində demokratların başlıca səhvi ondan ibarət oldu ki, onlar bütün səylərini Rəqabətin bərqərar edilməsinə yönəldərək, Riskə görə Təminatın tətbiqinə tam biganəlik göstərdilər. Keçid dövrünü yaşayan bütün postsosialist dövlətlərdə sistemin "Qanunun aliliyi" və "Prosedurаların müəyyənliyi" adlanan ünsürlərinə tam etinasızlıq müşahidə edirik...

Bundan əlavə, V.Bans yazır: "Nəticələrin Qeyri-müəyyənliyi (rəqabət) öz cəsarətli niyyətləri ilə ictimai təzyiq yaradır, bu isə öz növbəsində, ona aparıb çıxarır ki, dəqiq prosedurаların hazırlanması tələm-tələsik mühüm nəticələr əldə etmək istəyinə qurban verilir. Tələ də məhz bundadır!"

Prosedura müəyyənliyi kapitalizm və liberal demokratiyanın mahiyyətinin, bəlkə də, tam yarısıdır və bizim demokratlar sadəcə olaraq bundan xəbərdar ola bilməzdilər...

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Prosedura müəyyənliyinə etinasızlıq son nəticədə xaosa gətirib çıxarır, bundan çıxış yolunu isə cəmiyyət hər şeyə - həm insan fəaliyyətinin son nəticələrinə, həm də proseduralara təminat verilən sistemə qayıdışda görür. Belə sistem isə Normal Diktatura adlanır...

BÖYÜK SAYDA QEYRİ-MÜƏYYƏNLİKLƏRİ OLAN SİSTEMDƏ İNSANLAR ÖZLƏRİNİ NECƏ APARIRLAR?

“1. Əlbəttə, insanlar sistemdə olan, hələlik dəyişikliyə və titrəyişə məruz qalmayan çox az dayaq nöqtələrindən yapışmalı olacaqlar. Məsələn, belə vəziyyətlərdə etnik millətçilik güclənir.

2. Adamlar bütün uğursuzluqlara görə nəyisə və ya kimisə günahlandırmağa başlayırlar (ya konkret etnik qruplar, ya siyasi qüvvələr, ya da hökumət günahkardır), yaxud da nəyin və ya kiminsə tərifini göylərə qaldırırlar (“güclü əl”, SSRİ-yə qayıdış... barəsində arzular).

3. Adamlar ictimai həyatdan kənarlaşmağa başlayaraq, şəxsi işlərlə məşğul olurlar.

4. Adamlar özlərini böyük itkilərdən sığorta edirlər; onlar böyük uduşa deyil, kiçik itkilərə can atırlar...”

Daha sonra Valeri Bans  postsosialist ölkələrdə tezliklə liberal-demokratik kapitalizmin bərqərar edilməsi imkanları haqqında son dərəcə skeptik mülahizələrini bildirir.

Hər halda yadda saxlamalıyıq ki, cəmiyyətin yenidən qurulması üçün bizim göstərdiyimiz səylərin yarısını islahatlar hökuməti Qanunun Aliliyi və Proseduraların Müəyyənliyinin bərqərar olunmasına sərf etməlidir. Biz isə ya xəbərsizlikdən, ya da azad Rəqabətin cəmiyyətdəki bütün ziddiyyətləri öz-özünə yumşaltdığını güman etdiyimizdən bu işləri görmədik...

## 12. DEMOKRATİYANIN ÜÇÜNCÜ DALĞASI

(“What is Democracy?”, USIA, 1991)

Harvard universitetinin politoloqu S.P.Hantinqtonun fikrincə, Demokratiyanın inkişaf tarixi nə sakit, nə də fasiləsiz olmayıb. “Journal of Democracy”- da çap olunmuş məqaləsində Hantinqton Demokratiyanın inkişafının üç “tarixi” və ya “davamlı” dalğasını qeyd edir.

Bunlardan birincisi 19-cu əsrin sonlarında ABŞ-da ölkənin kişi əhalisinin əksəriyyətinin seçki hüququ alması ilə başlanıb və 1920-ci ilədək davam edib. Bu dövrdə dünyada 29 demokratik rejim yaranıb. 1922-ci ildə İtaliyada B.Mussolininin hakimiyyətə gəlməsi ilə birinci demokratik dalğanın sönməsi demokratik ölkələrin sayının 12-yə qədər azalmasına səbəb oldu.

İkinci dalğa müttəfiqlərin ikinci dünya müharibəsində qələbəsi ilə başlanıb.  1962-ci ilə yaxın özünün zirvə nöqtəsinə çatır: bu zaman dünyanın 36 ölkəsində demokratiya qələbə çalmışdı. 1962-ci ildən 70-ci illərin ortalarına kimi demokratik dövlətlərin sayı yenidən 30-a qədər azalır.

Hantinqtonun fikrincə, üçüncü, indiki demokratiya dalğası 1974-cü ildən Afrika və Latın Amerikasının müxtəlif rayonlarında, eləcə də Varşava Müqaviləsi dövlətlərində başlanır. Nəticədə dünyadakı demokratik dövlətlərin sayı təxminən iki dəfə artır.

Üçüncü dalğa öz zirvəsinə çatıbmı? 70-ci illərdə, xüsusilə soyuq müharibənin başa çatmasından sonra, 80-ci illərdə böyük uğurlar qazanmış bu dalğanın geri çəkilməsi gözlənilirmi? Postsovet məkanında İnsan haqlarının bugünkü vəziyyətini nəzərdən keçirərək deyə bilərik ki, bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda demokratiya öz mövqeyini əldən verir.

Hantinqton belə mülahizə irəli sürür ki, demokratiyanın dördüncü dalğası XXI əsrin əvvəllərində başlanacaq və çox güman ki, elə həmin vaxt biz onun geri çəkilməsini müşahidə edəcəyik. Demokratik dalğanın məhz belə xarakteri gələcəkdə heç də məcburi olmayacaq. Lakin Hantinqton hesab edir ki, keçmişdə olduğu kimi demokratiyanın inkişafına təsir edən başlıca amillər iqtisadi inkişaf və demokratiyanın siyasi liderliyi olacaq. Hantinqtonun yazdığına görə, iqtisadi inkişaf demokratiyanı mümkün, siyasi liderliyi isə - real edəcəkdir.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

SON SÖZ

# Demokratiya ilk növbədə insanlardır...

Demokratiya nədir və demokratik cəmiyyət necə idarə olunur? Yalnız demokratiya haqqında az-maz ədəbiyyat oxumaqla və demokratik ölkələrdəki həyatı uzaqdan müşahidə etməklə bu suala cavab vermək çox çətindir. Demokratik özünüidarənin mahiyyətinə nə dərəcədə yaxınlaşa bildiyimizi deyə bilmərəm; güman ki, hələ çox şey kölgədə qalıb; maraqların uzlaşdırılması və münaqişələrin həllinin konkret mexanizmləri də aydın deyil. Mümkündür ki, materialın qeyri-ardıcıl və mozaik təqdimi bəzən kitabın qavranılmasına mane olurdu. Bəlkə də, demokratiya tarixindən, antik dövrdən bizim günlərədək siyasi fikrin inkişafı prosesindən başlamaq və "suverenlik nəzəriyyəsi" üzərində ətraflı dayanmaq daha düzgün olardı? Lakin əmin oldum ki, hər şeyi əhatə etmək mümkün deyil.

İlk növbədə istərdim ki, bu kitab müasir demokratiyanın əsası hesab olunan İnsan haqları və Özünüidarənin mahiyyəti və inkişafı haqqında cəmiyyətdə olan bilik boşluğunu doldura bilsin.

Bütün hallarda insana "məqsədə çatmaq üçün vasitə yox, məqsəd kimi" (Kant) baxılmalıdır. Oçerkdə göstərildiyi kimi, İnsan haqları bütün ziddiyyətləri (etnik, sinfi, dini, dövlətlərarası və s.) yumşaltmağın yeganə universal əsasıdır; azalmayan lokal, regional və qlobal problemlər qarşısında adamların əməkdaşlığı heç də sonuncu yer tutmur...

Başlıcası isə, oxucunun diqqətini belə bir ideyaya cəlb etmək istərdim ki, demokratiya yaxşı qanunlar və müdrik liderlər yox, onu daim dəstəkləyən adamlar deməkdir.

Nizamnamə və konstitusiyalar hakimlərin və siyasətçilərin əlində mumdan başqa bir şey deyil. Demokratiya daxilən azad, ətrafda baş verənlərə tənqidi yanaşan, özgə fikirlərə və dünya təcrübəsinə açıq olan, özünün və cəmiyyətin digər üzvlərinin hüquqları uğrunda mübarizə aparan, udmağı və uduzmağı bacaran, münaqişələri dinc yolla həll etməyə qadir olan, əxlaqlı (çünki cəmiyyətə siyasi nəzarət zəiflədikdə, ona əxlaqdan savayı heç nə rəhbərlik edə bilməz), əməyi sevən, işləməyi bacaran və ilk növbədə öz üzərində çalışan insanlarla yaşarıdır.

*Mətnin sonu*

.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN